| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 30.09.2016 |
| QEYDİYYAT NÖMRƏSİ | 307-VQ |
| ADI | “Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz sisteminə dair” Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 20-11-2016, Nəşr nömrəsi: 257), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2016, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1745) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 20.11.2016 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 430.050.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12201609300307 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 16.11.2016 |

**“Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz sisteminə dair” Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz sisteminə dair” 2014-cü il mayın 26-da Ankara şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2016-cı il
307-VQ

**Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans Anadolu təbii qaz sisteminə dair**

**ANLAŞMA MEMORANDUMU**

Hazırkı Anlaşma Memorandumu (bundan sonra “Memorandum”) 26 may 2014-cü il tarixində aşağıdakılar arasında imzalanmışdır:

hər biri ayrılıqda “Dövlət” və birlikdə “Dövlətlər” adlanacaq

(1) AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ, Energetika Nazirliyi tərəfindən təmsil olunur (bundan sonra “Azərbaycan Respublikası”); və

(2) TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ, Enerji və Təbii Sərvətlər Nazirliyi tərəfindən təmsil olunur (bundan sonra “Türkiyə Respublikası”)

nəzərə alırlar ki,

(A) Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Trans Anadolu Qaz Boru Kəməri Layihəsinə dair, Türkiyə Respublikasının iştirak payına uyğun olaraq 20% (iyirmi faiz) və Azərbaycan Respublikasının iştirak payına uyğun olaraq 80% (səksən faiz) iştirak ilə layihə üzrə konsorsiumun yaradılması məqsədilə 24 dekabr 2011-ci il tarixli Anlaşma Memorandumu imzalanmışdır (bundan sonra “Memorandum”).

(B) Azərbaycan Repsublikası və Türkiyə Respublikası arasında 26 iyun 2012-ci il tarixli Trans Anadolu Qaz Boru Kəməri üzrə “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Hökumətlərarası Saziş” imzalanmışdır (bundan sonra “HS”).

(C) Türkiyə Respublikası və “Trans Anatolian Gas Pipeline Company B.V.” şirkəti arasında 26 iyun 2012-ci il tarixində “Trans Anadolu Qaz Boru Kəməri üzrə Tranzit ölkə ilə saziş” (bundan sonra “TÖS”) imzalanmışdır və HS-in tərkib hissəsi olaraq qoşmada verilmişdir.

(D) “Trans Anatolian Gas Pipeline Company B.V.” şirkəti öz hüquq və öhdəliklərini Türkiyə Respublikası qanunvericiliyinə əsasən təsis olunan “TANAP Doğal Qaz İletim Anonim Şirketi”nə (bundan sonra “TANAP Şirkəti”) ötürmüşdür.

(E) Azərbaycan mənşəli olan və onun ərazisindən gələn təbii qazın Türkiyə/Gürcüstan sərhədindən, Türkiyə ərazisindən keçərək və çıxış nöqtələri Türkiyədə və Türkiyə/Yunanıstan və Bolqarıstan sərhədlərində, eləcə də Dövlətlər tərəfindən razılaşdırılmış digər nöqtələrdə olan təhlükəsiz və səmərəli təbii qaz boru kəməri Trans Anadolu Qaz Boru Kəməri Sistemini TANAP Şirkəti quraşdırır.

(F) Hazırkı Memorandumun tarixində, Türkiyə Respublikası və TANAP Şirkəti TÖS-ə dəyişiklik edilməsi barədə anlaşma imzalamışdırlar.

(G) Hazırkı Memorandumun tarixində, Boru Hatlan ile Petrol Täşıma A.Ş. (“BOTAŞ”) və TANAP Şirkəti arasında təbii qazın BOTAŞ tərəfindən TANAP sistemi ilə nəql edilməsi məqsədilə qazın nəqli üzrə müqavilə bağlanmışdır (“BOTAŞ GTA”).

(H) Türkiyə Respublikası və Azərbaycan Respublikası 7 iyun 2010-cu ildə Anlaşma Memorandumu (“2010-cu il Memorandumu”) imzalamışlar. Memorandumun müddəalarından biri də BOTAŞ şirkəti tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (“ARDNŞ”) afilə olan şirkətinə Türkiyədə ildə 1.2 milyard kubmetr təbii qazın çatdırılmasını və sonradan da 2016-cı ilin sonunadək Petkim daxil olmaqla Türkiyə daxili bazarına və müştərilərinə satışını (“Türkiyə üçün təbii qazı”) nəzərdə tutur. 2010-cu il Memorandumuna uyğun olaraq, ARDNŞ-nin afilə olan şirkəti “SOCAR Turkey Petrokimya A.Ş.” (STPAŞ) və BOTAŞ arasında 28 iyun 2011-ci il tarixli 1.2 milyard kubmetr təbii qazın çatdırılması və alqı-satqısına dair Müqavilə imzalanmışdır (“STPAŞ- BOTAŞ Müqaviləsi”). Azərbaycan Respublikası STPAŞ-BOTAŞ Müqaviləsinin müddətini artırmaq niyyətindədir.

Bununla əlaqədar, Dövlətlər aşağıdakılara dair razılaşıblar:

Maddə 1
**Təfsir və anlayışlar**

**1.1. Anlayışlar**

Bu Memorandumda əks olunmadığı təqdirdə, böyük hərflər ilə yazılmış terminlər HS və TÖS-də qeyd edilmiş mənanı əks etdirir və həmin sənədlərdə əks olunmayan halda, aşağıdakı mənaları daşıyır:

**Namizəd** - Türkiyə Respublikasının tam mülahizəsi ilə təqdim edilən müəssisə;

**Şahdəniz Təbii Qaz Yatağı** - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz təbii qaz yatağı;

**Şahdəniz HPB haqqında Saziş** - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz təbii qaz yatağının bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş;

**Tamamlanma tarixi** - 1 iyun 2016-cı il;

**Zəfər-Məşəl Təbii Qaz Yatağı** - Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Zəfər-Məşəl yatağının daxil olduğu blok.

**1.2. Təfsir**

1.2.1. Bu Memorandumun maddələrə, hissələrə və digər bölmələrə bölgüsü və başlıqların yerləşdirilməsi istinadların

rahatlığı üçün qeyd olunub və Memorandumun təfsirinə və ya tərtibinə təsir etməməlidir.

1.2.2. Bu Memorandumda əks olunmadığı təqdirdə, nömrəli və ya hərfli "maddə"yə bütün istinadlar bu Memorandumda müəyyən edilmiş maddələrə istinaddır.

1.2.3. Burada istifadə olunan "bu Memorandum", "bundan sonra", "hazırkı", "aşağıda qeyd edilmiş" anlayışları yalnız bu Memoranduma aid olub heç bir digər xüsusi maddəyə və ya digər hissəyə aid deyil.

**1.3. Struktur**

Digər şərtlər məxsusi olaraq qeyd edilmədiyi və ya mətnin tələblərinə zidd olmadığı təqdirdə, tək halda istifadə edilən sözlərin cəm halı və əksinə, cəm halda nəzərdə tutulmuş sözlərin tək halı göstəriləcəkdir və cinsi nəzərdə tutan sözlər hər iki cinsi özündə cəmləşdirəcəkdir. Bununla belə, "daxil etmək", "daxil edir" və "daxil olmaqla" sözləri "bununla məhdudlaşdırılmamaqla" sözləri ilə birgə istifadə ediləcəkdir.

Maddə 2

**Türkiyə Respublikasının öhdəlikləri**

2.1. Azərbaycan Respublikasının 3-cü maddədə qeyd edilmiş öhdəlikləri aşağıdakı şərtlərdən asılıdır:

2.1.1. Türkiyə Respublikasının TANAP ilə HGA Dəyişikliyini imzalaması və ratifikasiyası;

2.1.2. BOTAŞ-ın BOTAŞ GTA-nı imzalaması və ötürməsi.

2.2. Türkiyə Respublikası 2.1-ci maddədə göstərilmiş şərtləri yerinə yetirdikdən dərhal sonra qeyd edilmiş proseslərin yerinə yetirildiyi barədə Azərbaycan Respublikasını yazılı şəkildə məlumatlandırmalıdır.

Maddə 3

**Azərbaycan Respublikasının öhdəlikləri**

3.1. Yuxarıda qeyd olunmuş 2-ci maddəyə əsasən Azərbaycan Respublikası bu Memorandumun imzalanıb və ratifikasiya edildiyi gündən sonra 90 (doxsan) gün ərzində növbəti şərtləri yerinə yetirməyi və ya təmin etməyi öhdəsinə götürür:

3.1.1. TANAP Şirkətində olan 30 % (otuz faiz) iştirak payının ARDNŞ-dən Namizədə ötürülməsi;

3.1.2. Şahdəniz qaz yatağında və Cənub Qafqaz Boru Kəmərində 10 % (on faiz) iştirak paylarının və Cənub Qafqaz Boru Kəmərinin genişləndirilməsi ilə bağlı layihəni ARDNŞ-dən və ya Şahdəniz HPBS-nə əsasən digər podratçıdan (podratçı ilə razılıq əldə olunduğu təqdirdə) Namizədə ötürülməsi;

3.1.3. Zəfər-Məşəl qaz yatağında 10% (on faiz) iştirak payı ARDNŞ-dən Namizədə ötürüləcəkdir. Bu ötürmə Zəfər-Məşəl qaz yatağının iştirak paylarını müəyyən edən hasilatın pay bölgüsü və ya hər hansı digər sazişin bütün tərəfləri imzaladıqdan və Saziş qüvvəyə mindikdən sonra həyata keçiriləcəkdir.

Maddə 4

**SOCAR Türkiyə üçün qazın nəqlinin uzadılması**

Türkiyə Respublikası SOCAR Türkiyə üçün qazm nəqlinin 31 dekabr 2021-ci il tarixinə qədər uzadılmasına və BOTAŞ-m STPAS-BOTAŞ GSA-nın müddətinin 31 dekabr 2021-ci il tarixinə qədər uzadılmasının təmin edilməsinə razılıq verir.

Maddə 5

**Mübahisələrin həlli**

Bu Memorandumun təfsiri və tətbiqi ilə bağlı meydana çıxa bilən istənilən mübahisələr İGA-nın 12-ci maddəsinə əsasən aradan qaldırılacaqdır.

Maddə 6

**Qüvvəyəminmə**

6.1. Hər bir Dövlətin Hökuməti razılaşır ki, bu Memorandumun imzalanmasından sonra bu sənədin onun Konstitusiyasına və beynəlxalq hüquq qaydalarına müvafiq olaraq məcburi öhdəliklərinə əsasən qüvvəyə minməsi üçün bütün tədbirləri gecikdirilmədən və zəruri şəkildə həyata keçirəcəkdir.

6.2. Bu Memorandum bütün daxili hüquqi prosedurlann yekunlaşdığı barədə Dövlətlərin diplomatik kanallar vasitəsi ilə bir-birinin yazılı məlumatını aldığı tarixdən qüvvəyə minəcəkdir.

6.3. Bu Memoranduma dəyişikliklər və əlavələr Dövlətlərin qarşılıqlı razılığından sonra edilə bilər. Hər hansı dəyişiklik və əlavə bu Memorandumun tərkib hissəsi olacaq və 6-cı maddəyə əsasən qüvvəyə minəcək protokollarda öz əksini tapacaqdır.

Maddə 7

**Səlahiyyətli orqanlar**

Bu Memorandumun icrası ilə bağlı Dövlətlər burada qeyd olunan aidiyyəti orqanları cəlb edirlər: Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi.

Maddə 8

**Xitam**

8.1. Bu Memoranduma aşağıdakı iki haldan birinin baş verdiyi təqdirdə xitam verilə bilər:

8.1.1. ölkələrin qarşılıqlı razılıq əsasında yazılı şəkildə bu Memoranduma xitam vermək qərarının imzalanması tarixində;

8.1.2. maddə 2.1-də qeyd edilmiş şərtlər Tamamlanma tarixinə (və ya Ölkələrin razılaşdığı digər tarixə) qədər yerinə yetirilmədiyi halda.

26 may 2014-cü il tarixində Ankara şəhərində Azərbaycan, türk və ingilis dillərində tərtib olunmuş və 2 (iki) nüsxədə imzalanmışdır və qeyd olunmuş bütün mətnlər bərabər məna daşıyırlar. Mətnlərlə bağlı hər hansı anlaşılmazlıq yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

| Azərbaycan Respublikasının Hökuməti adından cənab Natiq ƏLİYEV, Azərbaycan Respublikasının energetika naziri | Türkiyə Respublikasının Hökuməti adından cənab Taner YILDIZ, Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri |
| --- | --- |